

# İXRACYÖNLÜ SƏNAYENİN İNKİŞAFI: SƏNAYELƏŞMƏ SİYASƏTİ VƏ İNFRASTRUKTUR TƏCHİZATLARI

## RESPUBLİKA ELMİ KONFRANSI

10-11 oktyabr 2024

Naxçıvan şəhəri


industrycon24.ndu.edu.az
industrycon24@ndu.edu.az

+994 60 426 49 19
+994 50 384 23 43

**Naxçıvan Dövlət Universiteti**

**Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi**

# DƏVƏT MƏKTUBU

**“İXRACYÖNLÜ SƏNAYENİN İNKİŞAFI: SƏNAYELƏŞMƏ SİYASƏTİ VƏ İNFRASTURUKTUR TƏCHİZATLARI” MÖVZUSUNDA II RESPUBLİKA ELMİ KONFRANS**

10-11 oktyabr 2024, NAXÇIVAN

***industrycon24.ndu.edu.az***

**Dəyərli elm adamı**!

10-11 oktyabr 2024-cü il tarixlərində keçirəcəyimiz Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş **“İxracyönlü sənayenin inkişafı: sənayeləşmə siyasəti və infrasturuktur təchizatları”** mövzusunda Respublika Elmi Konfransında iştirakınızdan məmnun olarıq. Yeni iqtisadi idarəetmə mərhələsində Naxçıvan Muxtar Respublikasında ixracyönümlü sənayenin inkişaf perspektivlərinin müəyyən olunması sahəsində müasir tələblərə müvafiq olan araşdırmaların səmərəli nəticələrinin müzakirə olunması və yeni layihələrə zəmin yaratması məqsədi ilə, Siz dəyərli elm adamlarını Naxçıvana dəvət edirik. Elmi etikaya uyğun olaraq təqdim olunan orijinal tədqiqatların yer alacağı konfransımızda məqalə və tezislər dəqiqliklə incələnəcək və sonda konfrans kitabında nəşr olunacaqdır. Konfransımıza dəyərli tədqiqatlarınızla qatılmağınızı arzu edirik.

Hörmətlə,

**“İxracyönlü sənayenin inkişafı: sənayeləşmə siyasəti və infrasturuktur təchizatları”** Respublika Elmi Konfransının təşkilat komitəsi, konfrans.ndu.edu.az

Əlaqə:

***industrycon24.ndu.edu.az***

***industrycon24@ndu.edu.az***

Tel: (036) 5440861 (3220) (00994) 702474323 (Cavadxan Qasımov)
(00994) 703658165 (Əli Həşimov)

| KONFRANSIN YERİ: Naxçıvan Dövlət Universiteti | |
|---|---|
| **MÜHÜM MƏLUMATLAR:**<br>• Ödənişsiz iştirak<br>• Üz-üzə və online təqdimatlar<br>• Xülasə və tam məqalə nəşri<br>• İştirak sertifikatı<br><br>**MÖVZULAR**<br>• İxracyönümlü sənaye<br>• Yeni iqtisadi reallıqlar<br>• İqtisadi müqavimətlilik tədbirləri və inteqrasiya proseslərinin mahiyyəti | **MÜHÜM TARİXLƏR:**<br>**Qeydiyyat və mövzu adlarının göndərilməsi üçün son tarix**: 20.09.2024<br>**Tezis və ya tam mətin göndərilməsi üçün son tarix**: 30.09.2024<br>**Konfrans proqramının yayım tarixi**: 30.09.2024<br>**Konfransın keçirilmə tarixi:** 10-11.10.2024<br>**Konfrans kitabının yayım tarixi**: 01.12.2024<br>**Konqresin dili**: Azərbaycan, Türk, Rus, İngilis dilləri |

## KONQRESİN MƏQSƏDİ

Konfransın əsas məqsədi Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikasının malik olduğu təbii, iqtisadi və coğrafi resursların düzgün qiymətləndirilməsi, onlardan davamlı makroiqtisadi inkişaf məqsədilə daha səmərəli istifadə olunmasından ibarət olmaqdadır. İqtisadi inkişafın indiki mərhələsində muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni keyfiyyət mərhələsinin başlanması səbəbindən daha səmərəli iqtisadi layihələrin həyata keçirilməsi proseslərinə başlanılmışdır ki, bu da, nəticə etibarı ilə, ölkənin milli iqtisadiyyatına dolğun qaydada inteqrasiya olunma məsələlərini aktuallaşdırmışdır.

Ölkəmizin tarixi ərazi bütövlüyünün və milli suverenlyinin etibarlı qaydada olmaqla təmin olunması və yeni iqtisadi reallıqların əhəmiyyətinin yüksəldilməsi bütün tərəflərinə görə yaxın, orta və uzunmüddətli iqtisadi prioritetlərin də önəmini daha da artırmışdır. Bu mənada, ölkə başçısının 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq olunan Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üzrə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı olduqca mühüm əhəmiyyətə malik olmaqdadır. Orada muxtar respublikanın müasir iqtisadi inkişaf strategiyası ilə birlikdə, yerli xammala əsaslanan istehsal təsisatlarının yaradılması, idxaldan asılılığın məhdudlaşdırılması və bu sahənin etibarlılığının artırılması sahəsində dayanıqlı infrastruktur təsisatlarının yaradılması və bütün bunlarla da, ixracyönümlü məhsulların istehsalı sahəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsindən ibarət olan makroiqtisadi inkişaf məsələlərinə yer verilmişdir.

Dövlət proqramının müxtəlif bəndlərində, xüsusi olaraq da, onun GZİT təhlili üzrə "imkanlar" bölməsində "ixracyönlü sənaye sahələrinin

inkişafı perspektivləri”nin iqtisadi və sosial əhəmiyyəti elmi cəhətdən də olmaqla, əsaslandırılmışdır. Həmin hüquqi sənədin 4.1.3. Prioritet 3. “İxracyönlü sənayenin inkişafı” adlanır. Orada göstərilir ki, İxracyönlü sənaye sahəsində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, istehsal olunmuş sənaye məhsullarının keyfiyyəti yüksələcək, həmçinin yeni iş yerləri yaradılacaqdır. Naxçıvan Muxtar Respublikasında dövlət sənaye sahəsinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlaması təmin olunacaq, Naxçıvan Muxtar Respublikasında Sənaye Parkı yaradılacaq, istehsal olunan sənaye məhsullarının xarici bazarlara ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcəkdir.

Məhz konfransın keçirilməsinin əsas məqsədi də, müvafiq mövzu üzrə elm adamlarının çoxistiqamətli elmi araşdırma nəticələrinin kompleksləşdirilməsi, sistemləşdirilməsi və milli iqtisadiyyatın uzunmüddətli perspektivlərinin daha da əlçatan olması sahəsindəki əsaslandırmalardan ibarət olmaqdadır.

## KONQRESİN İSTİQAMƏTLƏRİ

**1. İxracyönümlü sənaye**

- Yüz illik iqtisadi inkişafın xroniki təhlili
- milli iqtisadiyyat üzrə uzunmüddətli perspektivlər

**2. Yeni iqtisadi reallıqlar**

- Naxçıvan Muxtar Respublikasının Azad İqtisadi Zona olaraq əhəmiyyəti
- Naxçıvan Muxtar Respublikasının Logistik perspektivlərinin yüksəldilməsi yolları
- Milli iqtisadiyyatın sənayeləşmə siyasətinin əsaslandırılması
- Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin əsasları

**3. İqtisadi müqavimətlilik tədbirləri və inteqrasiya proseslərinin mahiyyəti**

- İxracyönlü sənayenin makroiqtisadi inkişafa təsirinin öyrənilməsi
- regional siyasətin ixracyönlü sənayenin inkişafı sahəsində əhəmiyyətinin əsaslandırılması

## KONFRANS MATERİALLARININ TƏRTİBİ QAYDASI

**Kağızın ölçüsü:** A4
**Boş sahə:** hər tərəfdən 2 sm
**Şrift:** Times New Roman, 12 pt
**Sətirarası interval:** 1,15 sm.
**Abzas:** 1,25 sm
**Məqalənin adı:** ortadan, böyük hərflərlə, qalın şriftlə
**Müəllifin soyadı, adı, atasının adı:** ortadan, qalın şriftlə
**İş yeri, şəhər, ölkə:** ortadan, qalın şriftlə
**E-poçt ünvanı:** ortadan, qalın şriftlə
**Açar sözlər** (3-5 söz): Azərbaycan, ingilis və rus dillərində
**Xülasə** (250-300 söz): məqalənin yazıldığı dildən başqa iki dildə
**Həcmi:** 5-8 səhifə (məqalənin bütün tərtibatı daxil olmaqla)
**Düstur:** Microsoft Equation
**Ədəbiyyata istinadlar:** APA tərzinə uyğun olaraq – cümlənin sonunda dəyirmi mötərizə içində müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi, səhifə. Nümunə üçün: (Səmədova, 2024, s. 393)
**Ədəbiyyat siyahısı:** Mətndə qeyd olunan hər bir mənbə ədəbiyyat siyahısında əks olunur. Siyahı müəllifin adı ilə əlifba sırası ilə tərtib edilir.
**Nümunə üçün:**

1. Kofil, M. V. & Hubbard, R. G. (2019). Wiley revenue recognition: Rules and scenarios. Journal of Productivity, NY: Columbia University Press, 116-127.
2. Səmədova, R. A. (2024). Təhsilin ictimai münasibətlərə təsiri. Elmi əsərlər, Bakı: SƏS Nəşriyyatı, 393-407.
3. Yılmaz, E. (2021). Türkiye’de kapsayıcı eğitim. Ankara Üniversitesi Dergisi, 41-46